Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu

# HƏFTƏLİK BÜLLETEN №12[1]

**Azərbaycanda COVID-19**

**14-20 Sentyabr 2020 üzrə mühüm faktlar və qərarlar**

## 1. COVID-19: ölkə üzrə statistika

**20 sentyabr 2020-ci il:** Nazirlər Kabineti yanında Operativ Qərargahın yaydığı məlumata[2] əsasən həmin gün 146 nəfər yeni növ koronavirus infeksiyasına yoluxmuş, 1 nəfər vəfat etmişdir. Beləliklə, pandemiyanın başlanğıcından bu günədək COVID-19 xəstəliyinə yoluxanların ümumi sayı 39188 nəfərə çatmış, bunlardan 36755 nəfəri sağalmış, 575 nəfəri vəfat etmişdir. Hal-hazırda, 1858 aktiv xəstə mövcuddur. İndiyədək yoluxmanın müəyyən edilməsi məqsədilə keçirilmiş ümumi testlərin sayı 1054792 təşkil edir.

## 2. Mühüm qərarlar

Ötən həftə ərzində pandemiya ilə bağlı hər hansı qərar qəbul edilməyib.

## 3. Sahibkarların diqqətinə

**17 sentyabr 2020-ci il: Ticarət, xidmət və istehsal obyektlərində növbəti nəzarət tədbirləri[3]**

İqtisadiyyat Nazirliyinin sahibkarlıq subyektlərində pandemiya dövrünün zəruri qayda və tələblərinə əməl olunmasına nəzarət məqsədilə sentyabrın 17-də keçirdiyi monitorinqlər zamanı, 128 obyektdə epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena tələblərinin pozulduğu müəyyən edilib.

*Bakı, 21 avqust 2020*

[1] Bülleten USAID tərəfindən dəstəklənən "Kiçik Sahibkarlığın İnkişafına Dəstək Layihəsi" çərçivəsində hazırlanır.

[2] https://koronavirusinfo.az/files/3/tab_20.09.2020.pdf

[3] https://www.economy.gov.az/article/ticaret-xidmet-ve-istehsal-obyektlerinde-novbeti-nezaret-tedbirleri/31246